AZƏRBAYCAN RESPUBLİKASI

BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYONU İCRA HAKİMİYYƏTİ BAŞÇISININ

SƏRƏNCAMI

№ 87 "21" 04 2016-cı il

**Azərbaycan Respublikasında "Multikulturalizm ili" çərçivəsində Binəqədi rayonunda görüləcək işləri əhatə edəcək Tədbirlər Planının təsdiq edilməsi haqqında**

Multikulturalizm bir ideya və termin kimi ilk dəfə Qərbdə, Avropada dövriyyəyə çıxarılsa da və son dövrlərdə bu ideyadan geriçəkilmələrə yol verilsə də, Azərbaycan mühitində bu sahə artıq cəmiyyətin əxlaq kateqoriyasına çevrilib. Dövlət bu sahədə yarana biləcək problemlərə qarşı qabaqlayıcı tədbirləri yubanmadan həyata keçirməkdədir. Dünyanın müxtəlif bölgələrində din və milli zəmində baş verən qarşıdurma və münaqişələr, dini konfessiyaların, təriqətlərin, institutların cəmiyyətin siyasi həyatına, ayrı-ayrı dövlətlərin idarəçilik sisteminə təsir göstərmək cəhdləri bu gün də din-dövlət münasibətlərini gündəmdə saxlayır və ictimai müzakirəsini aktuallaşdırır.

Mədəniyyətlərin və dinlərin harmonizasiyası və ənənəvi siyasəti sayəsində Azərbaycan həmişə müxtəlif etnosların nümayəndələrinin mədəniyyətləri və dinlərinin inteqrasiya məkanına çevrilib. Müsəlman, xristian və yəhudi əhalisinin nümayəndələri arasındakı tolerant və dostluq münasibətləri Azərbaycan xalqının humanist ruhi mədəniyyəti üçün hər zaman xarakterik olub.

Multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir. Bu gün Azərbaycan artıq dünyada tanınmış multikulturalizm mərkəzlərindən biridir.

2016-cı ilin "Multikulturalizm ili" elan olunması barədə Sərəncam multikulturalizmin həyat tərzinə çevrildiyi Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılmasının vacibliyi, eləcə də ayrı-ayrı ölkələrdəki

müxtəlif multikultural modellərə xas fəlsəfi, sosial, siyasi və digər aspektlərin Azərbaycan reallığında təhlili və təşviqinin əhəmiyyəti nəzərə alınaraq imzalanıb. Sərəncam bütün ölkəmizdə olduğu kimi, Binəqədi rayon sakinləri və vətəndaş cəmiyyəti institutları tərəfindən rəğbətlə qarşılanmışdır.

2016-cı il Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 11 yanvar 2016-cı il tarixli Sərəncamını və "2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsinə dair Tədbirlər Planı" təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 11 mart 2016-cı il tarixli Sərəncamını və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.1.6-cı və 6.8-ci bəndlərini rəhbər tutaraq

**QƏRARA ALIRAM:**

1. Binəqədi Rayon İcra Hakimiyyətinin "Multikulturalizm ili" çərçivəsində görüləcək işləri əhatə edəcək Tədbirlər Planı təsdiq edilsin (Əlavə1).
2. Tədbirlər Planının icrasına məsul şəxslərə tapşırılsın ki, hazırlanmış "Tədbirlər Planı"nın icrasını nəzərdə tutulmuş vaxtda və tələb olunan səviyyədə təmin etsinlər.
3. Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Xaləddin İsgəndərov**

**№91**

SƏNƏDLƏR ÜÇÜN

**ƏSLİ İLƏ DÜZDÜR.**

**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Elnur İmanov**